

*Birdən yer aralandı,*
*biz qapıları bağladıq.*

*Xoşbəxtlik nədir ki?*
*Xoşbəxtlik bir nəfəsdir.*

SİRRAN

GÜLNARƏ İSRAFİL

GÜLNARƏ İSRAFİL

# Sirran

Gülnarə İsrafil

# Sirran

**"Elm və təhsil"**
**Bakı - 2021**

**Korrektor: Sevil Gül Nur**

**“Sirran” müəllifin üçüncü şeir kitabıdır.**

4702000000 / N-98-2021 qrifli nəşr

**© "Gülnarə İsrafil", 2021**

## Gülnarə İsrafil poeziyasının sirli qatları...

Gülnarə İsrafil imzası mənə bir neçə ildir ki, tanışdır. Özünəməxsusluq, bənzərsizlik onun poeziyasının özəlliyidir. İlk baxışdan çoxlarına, bəlkə də, çatmayan bu poeziyanı mən çox sevdim, hər kəlmənin, hər misranın alt qatında gizlənən sirri çözməyə çalışdım. Şeirin məna dərinliyini bəzən çox rahat, bəzənsə dəfələrlə düşünərək əldə etdim. "Mən adlı kim qaldı ki..." şeirini də oxuyanda eyni mənzərə ilə qarşılaşdım. İnsan ömrünün fəsilləri ilə nə qədər yaşlı olsa da, hamını dəhrəsindən keçirən Dünya qarının üz-üzə dayanmasının şahidi oldum. Fəsillər imdad diləyirmiş kimi birər-birər üstümə yürüdü:

***"Yaz gecəsində görüşdük,***
***ağaclar qırov bağlamışdı nəfəsindən,***
***dolanmışdı qapımıza qaranlığın zolağı,***
***nəyisə xatırladırdı, ya da anladırdı"-*** misralarında təsvir edilən yaz gecəsi mənə insanın doğuluşunu xatırlatdı. Qaranlıqdan işığa çıxmaq üçün uzun yollar keçən lirik qəhrəmanı qarşılayan yaz gecəsi öz məna tutumu ilə tərəzinin gözünü tərpənməyə qoymadı. Gözlərim qarşısında heç kimə, hətta yenicə do-

ğulan yaz nəfəsli körpəyə güzəştə getməyən Dünya və isti nəfəsi ilə yer üzünü isitmək, məsum baxışları ilə bütün qaranlıq köşələri nurlandırmaq istəyən körpə canlandı. O körpə ki doğulduğu gün üzünə açılan qapılarda qaranlığın qara zolağı ilan kimi onun pak cisminə doğru meyillənir və bəlkə də, həyatın məhz bu qara zolaqdan başlanacaq çətinliklərini anlatmaq istəyir. Ömrünün baharını yaşayan körpə isə bunu dərk etməkdən çox uzaqdır: "Onda nəfəsim çox istiydi, kin-küdurətsizdim", - misraları məsumluğun ən gözəl göstəricisi kimi insanı düşündürür. Zamansa dayanmır, iki fəslin qovşağında yolunu müəyyənləşdirməkdə çətinlik çəkən qəhrəmanın pak ruhunu Dünyanın sırsırası ovlayır, onu təslim olmağa məcbur edir. Onun:

***"İllər keçdikcə***
***soyuqluğun ciyərlərimə dolurdu,***
***buzladırdı ciyərlərimi;***
***nəfəs almaz olurdum",*** - etirafının üstündən ağrısız keçmək olmur. Çünki ömrünün yay fəslini yaşayan lirik qəhrəman bilmirdi ki, ilk dəfə gözünü açanda gördüyü qara zolaq ondan əvvəl böyüyüb qarşısına bir "ərməğan" kimi çıxacaq, qara dünyanın qara kabusu kimi onun ruhunu çalacaq, isti nəfəsini buza çevirəcək. Nəfəsindən cənnət ətri çəkiləcək. Nə üçün təngnəfəs olduğunu belə anlamayacaq.

***"Yay gecəsində təngnəfəsdim,***

***öləcəyimdən ölmüşümə gedirdim.***

***Öldükcə ölürdüm",*** - deyən qəhrəman zərurət qarşısında acizliyini dərk etdikcə geriyə də boylanır.

***"Bir qığılcım vardı ovcuma topladıqlarımda,***
***Ovcumdan atdıqlarımda.***
***Gömülməyə gedirdim ürəyində,***
***getdim,***
***fəsillərim qarışdı",*** - misraları ömrün xəzan çağının təzahürüdür – axirətə gedən yolun sonu, əbədiyyətin başlanğıcıdır, bütün ömrü boyu ikiliklər arasında doğrunu tapmamağın acı ağlartısı, bir tərəziyə sığmayan qazanılan və itirilən savabların hesabıdır. Günahkar kimdir? Yaşamağa deyil, ölümə - varkən yoxluğa məhkum edən həyatmı? Əlbəttə ki, yox. Bəzən bir qığılcımın oyanışa səbəb olduğunu bilən qəhrəman ümidsizləşmir, özünü də Dünya boyda qəlbdə dəfn edir və bu ölüm yeni həyatın doğuluşu kimi yadda qalır.

***"Mən adlı kim qaldı ki?"*** sualı tapdanan haqların harayını xatırladır. Özünü dərk edən insanın düşüncələri qədər fəlsəfi anlamlı bu sualda yaşanan ömürdən özünə boylanış çox məntiqlidir.

***Danışan, tapdanan,***
***itib-batan ayaq izlərindən başqa.***
***Gəlişimdən gedişimin fərqinə gedirdim,***
***getdikcə,***
***uzandıqca, qısaldıqca özümə boylanırdım səndən.***
***Varlığımda yoxluq,***
***yoxluğumda varlıq daşıyan***
***Dünya!***

Doğrudan da, yaşayarkən yoxluğu xatırladan insan ömrü bir ovuc torpağa dönəndə yeni doğulanlar üçün vara çevrilir, dünyanı zinətləndirir.

Gülnarə İsrafil yaradıcılığı təzadlarla aşıb-daşan bir "Həyatdır" - istisi ilə soyuğu, sevinci ilə kədəri, uşaqlıq xatirələri ilə bu gününün reallığı "naməhrəm" olduğu qədər bir-birini tamamlayan "məhrəm"lərdir! Lirik qəhrəmanını "xoşbəxtlik axtarışına çıxaran, tapdığı anda əlindən uçuran" şairin şeirlərində fəlsəfi anlam çox güclüdür:

***Xoşbəxtlik nədir ki?***
***Xoşbəxtlik bu qızın əllərindən uçandır.***
***Torpaqlaşandır bəlkə də.***
***Telefonun yaddaşında qalandır.***
***Qayğıdır bəlkə də.***
***Xoşbəxtlik nədir ki?***
***Bir misradır.***
***Bir layladır.***
***Bir də yüksüz, dərdsiz,***

***yox, yox, dərdli, amma yüksüz,***
***yüksüz bir şeydir, nədirsə…***

***"Şəkilləşən şəkillərdən şəklə düşən"*** insanın düşüncələri oxucunu bəzən özündən alır, onu əl çatmayan, ün yetməyən bir dünyaya aparır və "yox olma" adı ilə şəklini dəyişərək yenilənən dünyanın cazibəsindən çıxmaq mümkün olmur.

***İtən və yenilənən şəklimdə***
***adama***
***xəritə şəklində***
***uşaq geyindirmişəm birnəfəsə,*** - misralarında qalaktikamızda görmək istədiyi saflığa, paklığa işarə "boz sərçələr etibarlı olur" misrasında vətənə, yurda, ən böyük anlamda isə dünyaya sədaqət çağırışı ilə bütövləşir:

***Boz sərçə çağrılarında pardaqlanıb***
***yerə səd çəkmişəm.***
***Bir gün daş,***
***o biri gün torpaq,***
***o biri gün kömür,***
***o biri gün dəmir – enmişəm.***

Elmi fikirlərin poetik düşüncə ilə birləşməsi:

***Bir gün adam,***
***bir gün yad olmuşam***
***səbəblərə.***
***Onda elə orda qazanmışam***
***işıq verməyən irəliləyişi.***
***Orbitlərin***

***kiçik zərrəcikləri***

***əlli dəfə kiçik, səksən dəfə böyükdür,*** - misralarında əsas ideyanın açılmasına imkan yaradır. İlahi qüvvə tərəfindən nizamlanan qalaktikamızın yaşam səbəbi, öz oxunda "yüz min dəfə yaşlan"sa da, kiçilsə də, "bir o qədər böyü"sə də, "Qut boyda" sevilən adamlardır.

Gülnarə İsrafil yaradıcılığı yalnız deyim tərzi ilə seçilmir. Bu baxımdan hərəsi bir dünya olan üç bəndlik bir şeir diqqətimi cəlb etdi... Üç dünya və bu dünyaların ən böyük fəlsəfəsi - dərk edən insanın bitməz-tükənməz düşüncələri, arzuları, həyat eşqi... İnsanın mənəvi böyüklüyü... Və mənəvi böyüklükdən danışarkən Nəsimini hörmətlə yad edirəm: iki dünyanı ruhuna sığdıran, amma özü "cahana sığmayan" insanın əzəmətinə Füzuli dühası ilə cavab verirəm: "Heyrət, ey büt, surətin gördükdə lal eylər məni..."

Bütə çevrilən insan görən gözdür, qaranlıq dünyaları aydınlaşdıran gündüzlərin özü boyda bir nurdur. Elə bir nur ki, "baca-baca açılaraq" zülmətləri "oxu"yur, baca-baca açılanda tükənmir, "oxu"yanda böyümür. Bu nur zərrə kimi qopmağı da, bütövünə qovuşmağı da bacarır:

***"Mən qaranlıq bir dünyanın,***
***Gündüz boyda Gün içiyəm.***
***Baca-baca açılmışam,***
***Nə böyüyəm, nə kiçiyəm".***

`

***"Nə böyüyəm, nə kiçiyəm"*** deyərək dünyaya filosof gözü ilə baxan şairin ağ rəngə münasibəti də tamam fərqlidir. Ağlıq həm ucalıq, həm paklıqdır, amma:

***"Tellərimdə ağ uçqundur,***
***Yarğan-yarğan dağ uçqundur",*** - misralarındakı ağlıq "qara dünya"nın qara bağrından qopan dərdlərdən mayalanan ağ tüstüdür, "ağ" yaralardır – sinələrə çəkilən dağların uçqunu – harayıdır. Elə bir haray ki, dağ uçqunları kimi kükrəyəndə qarşısında dayanmaq mümkün deyil. Bu haray ömrü məşəqqətdə keçən ali varlığın sağkən parça-parça bölünməsidir, yurdsuzluğu, evsizliyidir, dünyanı çalxalayan ictimai bəlalardır:

***"Yaşlandığım sağ uçqundur,***
***Nə bir evəm, nə evciyəm".***

Şeirin son bəndi fəlsəfi anlamı ilə daha çox seçilir. Özünü bəxtin kəm ömrü zənn edən lirik qəhrəman bədbəxtdirmi? Əlbəttə, yox. Bəlkə də, bu səbəbdən insanın ölümsüzlüyünə inam yeni deyim tərzində diqqəti daha çox cəlb edir və yeddi qat torpağın hər layına qətrə-qətrə hopan insan nəfəsi (cismi) ilə yeddi qat göylərə yüksələn ruhun əbədi yaşaması fikri bir-birilə gözəl səsləşir:

***"Bəxt-yığvalın kəm ömrüyəm",***
***Ölümlükdə heç ölməyən,***
***Yeddi qatda gömülməyən***

***Nə sirsizəm, nə "Sirçiyəm".***

Birrənglik Gülnarə İsrafil yaradıcılığına yaddır. Bəlkə də, buna görə hər gün təkrarlanan həyatın özündə xanım şairimiz bir yenilik, gözəllik axtarır:

***Dayanacaqda***
***bir çılğın həyatın axışında hərəkət***
***insanlığın üzündə***
***bütün rənglərini bəlli edir.***
***Və həyat yeriyir...***

Müəllif də bu həyatın yolçusudur, amma tamam fərqli düşüncə sahibidir. O, həyata "yaşıl köynəkli adam kimi eynək arxasından baxmır, çünki həyat özü bir eynəkdir, yeknəsəqliyi xoşlamır, daim hərəkətdədir. İnsanların bir qisminin bu "Eyniyyət"ə uyması adi yaşam tərzinə çevrilsə də, zərurət deyil. Oxucu:

***Bulud sükut içində,***
***elə bil nəyinsə çıxış yolunu axtarır.***
***Sağımda, solumda***
***nəfəs çəkir tramvay.***
***Dilini dəyişir bu səfər***
***varlığın miniatürləri, -***

misralarında axtardığı həqiqəti tapır:

***Burda həyat gözəldir.***
***Hamı bir hərəkətdədir,***
***hamı həyat uçurur.***

Gülnarə İsrafil yaradıcılığının əsas dayağı Vətəndir və bu vətənin müəllif üçün obaş-bubaşı yoxdur. Zəmanənin tərs şilləsinə hədəf olan "Kəndlərimiz"in dünəni ilə müqayisədə kimsəsizləşən bu günü müəllifi çox-çox uzaqlara aparır: quruyan şır-şır bulaqlar, sinəsi sökülən dağlar, qurulmayan çadırlar, gəncliyin susan səsi nə qədər üzücü olsa da, xəyallar qoynunda yaşanan uşaqlıq onu həyata bağlayır və:

***Elçi daşın üstə təsbeh çəkənlər***
***Qan düşəndə yatırardı qalları.***
***O diyarda bəy doğulan, bəy kökən–***
***Bir Ulunun, bir Çinarın dalları, -***

bəndində şair eyni kökdən gələn nəsillərin özünə qayıdışını yaşayır. Bu qayıdış "Vətən" adlı vətənləşən şəhiddən başlayır:

***Bir şəhid gördüm ki, mən***
***Vətən olmuşdu,Vətən! –***

misraları bunun aydın nümunəsidir. Zamanı torandan, torpağı virandan arıdan, and, qürur mənbəyinə çevrilən, alnımıza zəfər möhürünü vuran, buludların üstündə zəmiləşən şəhidin, ağrıları qəlpə-qəlpə səngərləşən, fəryadına tapınaraq əzabımıza çevrilən qazinin "Portret"i bu qayıdışın himni kimi səslənir.

Gülnarə İsrafil yaradıcılığı həm poetik gözəlliyinə, həm dilinin şirinliyinə, həm də məna tutumuna görə az-az təsadüf edilən obrazlı ifadələrlə zəngindir.

“Gedişimin layları ağ kəpənək”, “Gələn səhər eynəyimi gətirmir”, “Xəyalımın yuvasından köçürəm”, “Yaxınlığın kor bucağı dibdədir”, “Yollarında çəm əyirir yolları”,

“Bir şahı var ərşə çıxan nalənin”, “Qəm darayır, qəm əyirir qolları”, “Mən ölümü neynirəm, ölüm məndə öldü ki”, “Bənövşəni ağlayanda toplayıb süsləmişəm özlüyümü Xəzərdən”, “Mən gülümü neynirəm, gülüm məndə göldü ki” kimi ifadələr məna yükünün ağırlığı və gözəlliyi ilə diqqəti cəlb edir.

İstedadlı şairimiz “Fəsillərim sis tamğalı ötənək” desə də, “Mən Günəş ömrü yaşayıram” misrası ilə sanki yaradıcılıq zirvəsində dayandığına işarə edir. Mən də inanıram ki, Gülnarə İsrafil qələminin sehri çoxlarını öz təsir dairəsinə salacaq.

***Naibə Yusif***
***Filoloq, şair-yazıçı.***

# Dəbdədir

Çoxdandır ki, yazammıram bir sətir,
Yazmadığım kətanımdır, daşımdır.
Ələklənib xəlbirindən keçmişəm,
Torpaq olan qatanımdır, başımdır.

Yaşadığım, yazmadığım köhnəlib,
Atam deyir, iş-güc qalıb, böyüyüb.
Anamın da qımqıması susandan
Yaddaşımda gizlənqaçım körüyüb.

Gələn gedir deyəcəklər bəlkə də,
Gedişimin layları ağ kəpənək.
Xoşbəxt oldu göy üzünün seyri də
Nağılların ovsununda bir ətək.

Gələn səhər eynəyimi gətirmir,
Xəyalımın yuvasından köçürəm.
Bəlkə kimsə günahkardır, bilmirəm,
Bəlkə özüm öz ömrümü biçirəm.

Əlim qalır uzaqlara uzaqlı,
Yaxınlığın kor bucağı dibdədir.
Ömrü boşa axıtmağım günahmı,
Bəlkə elə belə yaşam dəbdədir?

## Saat tilsimi

Niyə ölüm gizlənib bu şəbehin içində?
Bəxtəvərin sisində duyğular azarlanır.
"Kişidə söz bir olar", yaş əbədi cavandır,
O köhnəlik, əzəli öykülər bazarlanır.

Dəniz dalğalarında mirvari dibə enir,
Yaşlanır qoz ağacı günün günortasında.
Bir zahid əl yelləyir gedən-gələn sarvana,
Elə bil ki, oturub dinin düz ortasında.

Kirşanı xonçalayır yuxumda bir əcəm qız,
Düyünləyir belinə göyün yeddi qatını.
Ulduzları cehizlik, ayı başlıq gətirir,
Çoxaldır səhralığın susuzluq urvatını.

Sevgim qaynar bulağı məcrasından çıxarır,
Göyərdir göy üzündə rəngi göy ümidləri.
Məngənələr dişində çarmıxa çəkən varım,
Bucaqsız ağrılarda qarğa, döy ümidləri.

Yol verilsin, bu bəxtli bəxtəvər yola gəlsin,
Dənizlərin çılğını daşlamasın sahili.
Bir mən, bir sən, baş-başa tutaq saat tilsimi,
Bizdən uzaq bir zaman qışlamasın ta ili.

## Səkkizinci qat

Mən qaranlıq bir dünyanın
Gündüz boyda Gün içiyəm.
Baca-baca açılmışam,
Nə böyüyəm, nə kiçiyəm.

Tellərimdə ağ uçqundur,
Yarğan-yarğan dağ uçqundur,
Yaşlandığım sağ uçqundur,
Nə bir evəm, nə evciyəm.

Bəxt-yığvalın kəm ömrüyəm,
Ölümlükdə heç ölməyən,
Yeddi qatda gömülməyən
Nə sirsizəm, nə sirçiyəm...

## Yer yeriyir

Gözümdən sallanır buzlu sızılar,
Nəfəs hovruğunun nəfsinə gəlir,
Üşürgən-üşürgən əlbir olub da,
Bir xırda qırıqdan əfsuna gəlir.

Qırpığa evrənin işığı yalın,
Yeriyir üstünə, buzladır nəmi,
Sürüşüb gələndə göydən aşağı
Torladır gözümə çəkilən çəni.

Bu mənə göylərdən enən ruzigar,
Bu mənim şaxtalı son baharımmı?
Dumanın içində azan mənəmmi,
Yoxsa yarım qalan arzularımmı?

İndi yer yeriyir bir başqa səmtə,
Göyün göy üstündə rəngi dəyişir,
Sızan qatlarının sızı əriyir,
Mənim soyuqluqdan ürəyim bişir.

## Kəndimiz

Nəyi yaza, nəyi poza qələmim,
Dağda bulaq öz gözündən quruyub.
Çadır qurmur Şəhrəbani nənəmiz
Qoyunları öz düzündən qoruyub.

Karxanaya döndəriblər Xalxalı,
Yastı daşı kamaz-kamaz daşınır.
Sinəsini ovuq-dəlik edəndən
Göy çəmənin ağrıları qaşınır.

Qısa çatır qalaçanın yolları,
Alaçığın yolları bir nağıldı.
Babalarım salıb kəndi, bərəni,
Coma yeri, çardaq yeri dağıldı.

Cığırları soluxlanır Sərkərin,
Dəyə quran dəyəsində yaslanıb.
Qaraçökək qoruq yeri əzəldən,
Gül-çiçəyi kərəntəyə süslənib.

Yastanada top oynamır cavanlar
Dığırlanıb məhləmizə qol ola.
Hərdən biri ərinəndə gəlməyə
İkisi bir enib gələ qol-qola.

İşıqlıydı hisli-paslı çıramız,
Beşdaşında ov itimiz varıydı.
Məhləmizin bir tərəfi samanlıq,
Bir tərəfi qarğıdalı, darıydı.

Nə gözəldi heç keçməyən uşaqlıq,
Buludları izləyərdik – dolu, qar?
Bəzən bizi yağış büküm edərdi,
Bəzən külək yuvarlardı bir topar.

Elçi daşın üstə təsbeh çəkənlər
Qan düşəndə yatırardı qalları.
O diyarda bəy doğulan, bəy kökən –
Bir Ulunun, bir Çinarın dalları.

## Dillənər başım

İnsan olmayanı qəbir düzəltməz,
Öykünü, haykını təbir düzəltməz,
Düz əyri yeriyər, səbir düzəltməz,
Başıma özündən ələnər başım.

Su axar, yerinə qayıdar geri,
Edər etdiyini, oyadar diri,
Küllədər, sovurar, ovudar yeri,
Qışıma cüzündən çilənər başım.

Əynimə bir geyim kəfən tapılmaz,
Yumağa yer deyə əfən tapılmaz,
Çevrilər göy yerə, nə fənn tapılmaz,
Yaşıma dizindən dilənər başım.

Üstümü tozlayar gərdişin tozu,
Tökülər ağzıma hər dişin tozu,
Qalar ləpir-ləpir dərvişin tozu,
Daşıma gözündən dillənər başım.

## Qocaldım

***21 ilin şeiri***

Ömrümün qönçəli, nurlu sabahı
Soldu, qaranlığa çökdü, qocaldım.
Əzəldən yaranan qaf məhəbbəti
Özgənin qisməti çəkdi, qocaldım.

Mənə qismət oldu əzab-əziyyət,
Puç oldu arzular, puç oldu niyyət,
Göz yaşım elədi mənimlə söhbət,
Gənc ikən zülmətim səkdi, qocaldım.

Sevdiyim yarımdan aralı düşdüm,
Taleyin oyunlu toruna keçdim,
Küləkli tufana, çovğuna köçdüm,
Gəncliyin çırağı təkdi, qocaldım.

Saçıma ələndi qüssədən ağ qar,
Nə yaman tez ötdü sevdalı anlar,
Qırıldı saz simi, ötmədi heç tar,
Taleyim bir daşa əkdi, qocaldım.

## Qadan alım

***21 ilin şeiri***

Gözəl yarım, göndərmişəm naməni,
Götür, cavab söylə, al, qadan alım.
Qəm üstündə köklənibdir "Kərəm"i,
Dilləndir sazını, çal, qadan alım.

Sənsiz nədir el-obanın mənası?
Silinməyib Əsli-Kərəm yarası.
Başımdadır məhəbbətin havası,
Düşübdür köksümə xal, qadan alım.

Durna düşüb qatarından aralı,
Dalda qalıb ürəyindən yaralı,
İnan, mənəm bu ellərin maralı,
Hürküdənməz məni el, qadan alım.

Axtararsan dildə mənim sorağım,
Şeir-dastan ömür yazım, varağım,
Sənsən göz işığım, yanan çırağım,
Qaranlıq düşübdür bil, qadan alım.

## Qəriban

Deyirlər ki, bir qəriban köç etmiş,
Qəribsəyib min istəyin aynası.
Xəstə olub, saçlarını sac etmiş,
Dərd xurcunu bağlayıbdır anası.

Quruyubdur bir fidanın pöhrəsi,
Söz dağılıb səbətinin içinə.
Geyinməyə boy üstündə al qumaş,
Seçilibdir məbədləri biçimə.

Deyirlər ki, bir qəriban köç etmiş,
Sırasında qəriblərin adı var.
Köç yolunda bu dünyaya öc etmiş,
Bir doğması, bir yaxını, yadı var.

Bu qəriban arzuları dəf etmiş,
Ölçülərə mindiribdir zindanı.
Həm gedəni, həm gələni əfv etmiş,
Hal yaradıb sindiribdir min danı.

Deyirlər ki, bir qəriban köç etmiş,
Yollarında çəm əyirir yolları.
Bir şahı var ərşə çıxan nalənin,
Qəm darayır, qəm əyirir qolları.

## Dərd kürəsi

Bədirlənmiş ruhunu gəl içimə çəkim, gedək,
Tənhalıqdan ulduzları boyuma biçim, gedək,
Gözlərindən səadəti su bilim, içim, gedək,
Biz olaq.

Sığal istər saçlarım, dəninə çən qarışaq,
Sənin misralarında kəminə mən qarışaq,
Bu yalançı dünyanın çəminə sən qarışaq,
Söz olaq.

Yaddaş bizim qasırğa, çıxaq ud nəfəsindən,
Çaxaq qara-ağ bulud, qopaq bulud bəsindən,
Tut əlimi, güclənib qaçaq dərd kürəsindən,
Öz olaq.

## Göy "sin"dir

### Şöhrət Cəfərə

-Baxışınıza baxıb darıxdım.
- Harda?
- Profil şəklində.
- Hə...qıyılmış baxışlara?
 Günəş qıyıb gözlərimi.
- Günəşi endir aşağı!
- Ensə yandırar məni.
- Yerinizi dəyişin!
- Günəşsizliyə?

Sən Günəş ol, yer üzünü isindir,
Yatır, oyat sabahları, diksindir!
Yer əlifdir, yer əlmasdır, göy "sin" dir,
Bir göy yarat, bir göy böyüt, göy sindir.

Murov başı daş-qaşını əritsin!
Kəlbəcərin bir ovucu-diri "sin".
Babamızın ruhu rahat dinisin,
Qırovları ərit, axıt, din, isin.

Yanşağımın gəlin üzü, "sin" üzü,
Bir ayədir, pir ayədir min üzü,
Gətir səndə, gətir "sin"də gündüzü,

Günəş açsın Qarabağın gün düzü.

## Şənsən

Ey ulu tanrının əziz varlığı,
Haqqı haqq yoluna calayan sənsən.
Dağıdıb neçə ev, qurub neçə ev,
Məni qəm evində arayan sənsən.

Dönüb qardaş üzü, bacı arxası,
Susubdur Kəbədə Quran sədası,
Haqqın, ədalətin ey haqq dünyası,
Məni hər əzaba dolayan sənsən.

Dilimdə donubdur arzu, səadət,
Xəstə duyğularım vermir zəmanət.
Gecəni gündüzə eləmisən əqd,
Məni zülmət, zülmət qalayan sənsən.

**2003**

## Şis tamğalı ötənək

Əlim gəlmir dərd-ağrıdan yazmağa,
Ağ çiçəyin ləçəyində gizliyəm.
Əl əlimi sığallamaq istəsə,
Sığalların əl çəkində yazlıyam-
mən ölümü neynirəm, ölüm məndə öldü ki.

Qışı yaza əymişəm,
Yazı yaya geymişəm,
Mən kaman olacaqdım,
Qamış-qamış neymişəm.
Sevgi verib əritmişəm buzluğu,
Qaymaq çiçək don geyinib zəhərdən.

Bənövşəni ağlayanda toplayıb
Süsləmişəm özlüyümü Xəzərdən–
mən gülümü neynirəm,
gülüm məndə göldü ki.

Ağımda qara bişdim,
Payızda dağa köçdüm,
Səhərlər çiçək açdım,
Ləçək-ləçək dəymişəm.

Kəklik otu saçlarımın ətridir,
Uçur məndən xallı-xallı kəpənək.
Qayaların boz cığırı üzümdə,
Fəsillərim sis tamğalı ötənək,
mən günümü neynirəm,
günüm məndə güldü ki.

## Şəhid analarını ağladanlara

Bu Zəfərin gözlərini silin, gülsün,
Yarasına köz tökməyin anaların.
Oğul verən ana gərək Zəfər ölsün!
Baş daşına göz dikməyin anıların.

Zəfəri Zəfər yaşayın!
Qəhəri qəhər yaşayın!
İstəmirsiniz birini?
Onda
birtəhər yaşayın.

Başdaşına bağlı qalan müqəddəsi
alın ordan!
Sinəsinə gor düşəni
xilas edin xain gordan.
Aparmayın qisas kimi oyunlara,
Əlinizdən dəyənəyi qoyun qora –
Göz tökməyin göz yaşına anaların!

## Mən elə gündüzəm

Mən elə gündüzəm, elə gecəyəm,
Şəfəqlər darayır ipək telimi.
İstilik nazlayır üfüqlərini,
Meh öpür, gün öpür ürpək əlimi.

Mən elə gündüzəm, elə gecəyəm,
Gözlərim dünyadan sallanıb durur.
Hərdən qönçə açır günüm, gündüzüm,
Hərdən tumurcuğa aldanış olur.

Günlərin öpüşən səması pərdə,
Kəpənək qanadı uçur elə bil.
Örtür eşq gülünün üzünü yerdə,
Utancaqlıq verir güldən gülə il.

Mənim günlərimin köynəyi yaşıl,
Dəyişkən ömrümə dan örtüyüdür.
Bütün sevgilərin kilidi məndə,
Hər şey başdan-başa an örtüyüdür.

Mən elə gündüzəm, elə gecəyəm,
Hər şey vücudumda tərpənib durur.
Məndə işıqlanır ömür aynası,
Məndə vücudlanır körpələr, doğur.

Mən elə gündüzəm, elə gecəyəm,
Gecələr, gündüzlər qutağac olur.
Nəfəsim oxşama, bayatı, segah,
Ağappaq saçlarım tutağac olur.

## Dil əkli ithaf

Nə ola, qapım ola, qapım yoxdur döyülə,
Kələ-kötür göz üstə qonağı ağırlayım.
Dədələrin misalı nağıllar kitabında,
Div otağım ola kaş, mənim də nağıl ayım.

Məlikməmməd yetişə, əjdahını öldürə,
Qırx qız gələ bulağa, səhəng ala çiyninə,
Kəlağayı başından sürüşdürüb aşağı,
Yeddibağ tuman geyə üst-üstündə əyninə.

Dastan deyə babamız qəndilli qara damda,
Aşıqlar söz oxuyub, sabahı diri aça.
Yenə də bir gecədə aşiq ola adamlar,
Səhərəcən sevişib, səhəri dili aça.

Cütçü lələ təklənib məhləmizi şumlaya,
Nənəm əlçim oraqla ot biçə sərin-sərin.
Arada düyünləyə, arada düymələyə
Hamıda tapılmayan bəzəkli tirmələrin.

Hardadır uşaqlığım, yeddidüşə oynayaq,
Üst-başımız tozlana, yıxılanda əzilək.
Yenə atılıb-düşək kəndirbazda tək ayaq,
Məktəbin həyətində bənövşəyə düzülək.

Uşaqlıqda eləcə kitabdan ev qurardım,
Sel aparıb, çay daşıb lələkli kitabları.
Atama bəylik kodu "lələ" deyirdi hamı,
İtirmişəm bənövşə dil əkli ithafları.

Yoxluq-heçlik bu çağda nağıllara pinəlik,
Yanıb, çoxdan tükənib lələyi simurq quşun.
Kündəsi künd gedibdir, mayası xarab çıxıb
Altı sifət, altı dad kəsəkdən yoğruluşun.

## Bayatı

Əzizim, yandı könlüm,
Vətəni andı könlum,
Həsrətdən gül üstünə
Tökülən qandı könlüm.

O dağlar ulu dağlar,
Düşmənin yolu dağlar,
Vətəndə vətənsizəm,
Ürəyim dolu dağlar.

Qarabağa çən gəldi,
Acılara tən gəldi,
Şəhid verən ananın
Saçlarına dən gəldi.

Əzizim, odu sönmüş,
Ocağın odu sönmüş,
Mən dönməkdən yurduma,
Esitdim yağı dönmüş.

Göylərdə quşa dönsəm,
Bahara, qışa dönsəm,
Nə dərdim olardı ki,
Vətəndə daşa dönsəm?

Tar susub, dilə gəlməz,
Bülbüllər gülə enməz,
Əldən gedən Qarabağ
Şəhidsiz ələ gəlməz.

## Sökülürəm

Gözlərimə səpələnir
Bulud ağlaya-ağlaya.
Alışır, yanır içimdə
Bir ud ağlaya-ağlaya.

Köksümə payız yeriyir,
Saralır köksüm, əyilir.
Gözlərimə soyuq düşür,
Kirpiyimdə qar əriyir.

Yerə-göyə bələnirəm,
Könlümün olur həmdəmi.
Dönüb gəlir fəsillərim,
Özümdən aparır məni.

Yumaqlayır hər gün, hər ay,
Hər il, bir az bükülürəm.
Hörülmüşdüm bu dünyaya,
İlmə-ilmə sökülürəm.

***2014***

## Bəxtli qız

Gün o gün olmur daha,
Qara-qura çin çıxır,
Günün günorta vaxtı
Söz tökülür, cin çıxır.

"Cız" yazıram, "mız" olur,
Nə söyləsəm, söz olur,
Ölsəm, bəlkə düz olur,
Yerdən göyə din çıxır.

Bəxtli qız, uğur olsun,
Yüklənmə, ağır olsun,
Bəxtin yox, fağır olsun,
Nifrət gülür, kin çıxır.

Günün otaqda batdı,
Ayın yıxıldı, yatdı,
Bəlkə ulduz oyatdı,
Gecə-gündüz tin çıxır.

## Baryum buludu

Sarı buludun zəhəri
yanar dağa dağılışdı,
Qırmızı, ağ çınqılardan
milyon saçaq sağılışdı
yaşayışa.

Yeddi rəngin təpəgözu –
Şimşəklərin qığılcımı,
Bir qaztopu suyun şövqü
halqalarda toz ilğımı
sıçrayışa.

Ev boyda qara qartopu,
narıncı, sarı çir yeli.
Yeddi rəngi yumutladı
yaşıl, hava, göy, çirneli
anlayışa.

Səkkiz trilyon uzaqda
gəzişdi uşaq addımı,
Parıltılar çıtkılandı,
Töküldü şaqraq od damı
adlayışa.

İkinci Günəş uzağı –
Yeddi ulduz, yeddi sonsuz,
Qaranlıq baryum buludu
Doğdu, yağdı, öldü tonsuz
partlayışa.

## Haça yol

Nə uzaqsan, nə yaxın,
Gəzib-gəzib itmisən.
Sən yuxusan, duyğusan,
Gəlib-gəzib getmisən.

Sınıb əzik şüşətək
Yollarında ələyəm.
Mən ən yuxa, ən əzəl,
Ən son qopan küləyəm.

Məni sən anlamazsan,
Bəlkə anlar, susarsan.
Bəlkə məni özüntək,
Hər tərəfə yozarsan.

Gedən yol haçadırsa,
Biri düzə çıxacaq.
Hardan hara getsən də,
Gəlib bizə çıxacaq.

## Şehr aça şəhər

Bir çiçək gətirən ola,
Gülü könlündən üzülən.
Bir işıq gələ gözümə,
Nuru özündən düzülən.

Sehr aça şəhər axşam,
Duyğulana yana adam,
Çirkinlik oluna edam,
Şalı özündən süzələn.

Ulduz qıya, ətirlənə,
Külək yağa, çətirlənə,
Torpaq dola, sətirlənə,
Sözü özündən düzələn.

Əlimə bir pətək düşə,
Arılar umsunub şişə,
Bir buğda dönə kişmişə,
Balı özündən süzülən.

## Daş–ağac

Niyə bəd dua etdin
“Məni unutma” deyə?
Sənsizliklə uzanıb
Çıxıb gedimmi göyə?

Ölsəm, günah yerimsən,
Qalsam, əzab təşnəsi.
Dua edib dərdləmə
Məndən özgə bir kəsi.

Sənin varlığın nədir,
Daşmısan, ağacmısan?
Məni mənə buraxıb,
Öz içimdən asmısan!

## Bənzərim

Eyni mənim bənzərim,
Tənha ağac, tək ağac.
İki qola ayrılıb,
Yer üstünə yük ağac.

Qışa bənzər yazı var,
Gülə bənzər ətəyi.
Sinəklərə yox tamı,
Allı-güllü pətəyi.

Yaza gecikən ağac,
Yaz tökülür qışından.
Dörd fəslinin rəngi var,
Səpilib qurğuşundan.

Bu ağac ağ gətirib,
Yaşılı tarım-tarım.
Fatası gün kömürü,
Ətası arım-arım.

Bu ağac  yaza yalqız,
Dənizli, ormanlı qız.
Gəlib, başımda açıb
Tək qalan dumanlı qız.

## Üz üstə

Elə yuxum gəlir ki,
Yuxular karım olur.
Üşüyən torpaq altda
Bütövüm, yarım olur.

Başıma bir daş düşür,
Başım daşla qarışır.
Ovcumda göy ümidlər
Yaşa dolur, qırışır.

Üç hərfli kəlməyə
Həbs olunur əsillər.
Yana düşür, quruyur
Ninnəli yumru əllər.

O müqəddəs gecənin
İlindən sözüm düşür.
Öz ömrümün dibində
Sivrilir gözüm, üşür.

Eləcə yuxum gəlir,
Uzun çillə yuxusu.
Hər dəm üstümə yağır
Zillət, zülmət qoxusu.

Dizim qırılır yaman,
Diz çökürəm diz üstə.
Bu dünyadan qopuram,
Qıvrılıram üz üstə.

# Vətən

Bir şəhid gördüm ki, mən
Köynəyi can verirdi.
Dilində ilk yaddaşı,
Qurumuş son kəlməsi
Yerdən torpaq dərirdi.

Doğacaq körpəsinin
Qoxusuna tamarzı.
Unudurdu nəğməni
Dodaqları qaçaraq,
Pıçıltı qovlayırdı,
Hənirti axtarırdı
Canından can açaraq.

Medalı çiçək açmış,
Laylası bumbuz, hamar,
Ürəyində qaynardı
Güllə açmış samovar.

Bir şəhid gördüm ki, mən
Sükutu üfüq sarı.
Qənd dadını verirdi
Onda ömür layları.

Bir şəhid gördüm ki, mən
Torpaqdan don geyinmiş.
Anadan köz atəşi,
Atadan sirr daşları
Geyinmiş də, geyinmiş…

Təpədən dırnağacan
Doğma, yad yavaşları.
Bütün yer kürəsində
Ölümcül savaşları.

Bir şəhid gördüm ki, mən
Vətən olmuşdu,Vətən!

## Anam

Gözlərimə köçən anam,
Səsini səs yolla, gəlim.
Dərd çiynini biçən anam,
Dərdini sil, tulla, gəlim.

Qabar əlinə sırışım,
Yornuq qolunda qırışım,
Çağır, nəfəs ver, çalışım,
Dizim sınıb, qolla gəlim.

Soyuq üzünə yetməyə,
Yumru əlindən öpməyə,
Saçını yaylıq etməyə,
Səslə, səslə, yalla gəlim.

Yaza çıxmayan çiçəyim,
Ətri burnumda tütəyim,
Ay dağım, ağım, birçəyim,
Bir öpüşü balla, gəlim!

## Xonça tutur mərmi

*Şəhid Əkbər Hüseynliyə*

Daşın üzü gülümsəyir,
Xonça tutur mərmi əli.
Torpağın gülləsi dərir,
Dik qaldırır daşda əri.

Gülüşü kəklik səkdirir,
Köynəyi üç rəngə dolur.

Sinəsi xallı köynəyin,
Toylu-qavallı köynəyin.
Vətənə çevrildi igid,
Geyindi şanlı köynəyin.

Bu, ər oğul, ər oğuldur,
Evdə təkdir, bir oğuldur.
Çiyni torpağı qaldıran,
Dayaq-ərgin, tir oğuldur.

Bu ömrün yoxuşu yastı,
Toxmağı, külüngu paslı,
Sevdasının saçı qanlı...
Bələyi, beşiyi yaslı.

Daş ömür, ağac ömürdür,
Dik ömür, qıyqac ömürdür.

***

Murov qana boyanır,
Şəhid-şəhid oyanır.
Vətən min can aparır,
Biz yanmışıq, o yanır.

## Şarı küm

Yüküm təmiz, təzədi,
Öz kökünü bəzədi.
Palçıq çıxar, daş batar,
Sözüm birdi, üzədi.

Qonağım sarı yarpaq,
Sarı dam, sarı torpaq,
Gün-gündüzüm qaradır,
Sarı küm, sarı qalpaq.

Başına yağış düşər,
Yoluna qamış düşər,
Budaq göyə ərəndə
Yerə budanmış düşər.

Bu bəxt gülün bəxti, kəm,
Qılıncı var, təxti kəm,
Hardan tutsam, qırılır
Qırıq bəxtin bəxti tən.

Günüm ərəndi, getdi,
Ömrüm çiləndi, getdi,
Nağıl yaşlandı, bitdi,
Getdi, külləndi, getdi.

Kim andı, kim anladı,
Gələn, gedən danladı.
Su ömrümü külünglə
Hərə yondu, yanladı.

Saçım qara, yarım çal,
Yarım oyna, yarım çal,
Yaz bir musiqi bəstə,
Yar köksümü, yarım, çal!

## Yarpaq düşdü

Ağacdan yarpaq düşdü,
Telindən ayrıldı dünya.
Kəfən öpdu dodağını,
Dilindən ayrıldı dünya.

Sənə ağlayan gözüm
Gül tökdü, gül axıtdı.
Naxışladı gül üzün,
Gülü gülə toxutdu.

Gülünə gül bənzərmi?
Ömrün tək bircə güllük.
Dünya özü belədir –
Dünya tək bircə günlük.

Ağacdan yarpaq düşdü,
Telindən ayrıldı dünya.
Kəfən öpdu dodağını,
Dilindən ayrıldı dünya.

## Hun atam

Daş adam,
əlində diriliş suyu,
kimliyində bəy dədəm,
kötüyündə yox hərəm.
Boy vermiş köç-köç
Ön Asiyadan Sibirədək.
Van gölü,
Xəzərə dəng.
Urmiya, Kərkükə dönək.
Anadolu,
Lidya-Troya,
Kuruqan qazan, tarix yazan
Prototürk,
Etrüsk,
Aratta,
Subar,
Qut,
Turuk.
Gələnəklər,
göyqurşağı.
Qut tengri,
Göy tengri;
Şaman ayin,
köç yeri.
Tamğalı

Qobustan qayaları.
Huydum–
hun dam.
Yay düzəldən,
ox atan.
Günəş tanrı,
Günəş adam,
Hun atam!

# Yetim

Sevgi böyüyən adam,
sən böyük qal,
mən kiçik,
səndən gedim ən kiçik.

Oxu məndən bir şeir,
qır ki, tök ki,
ələ salıb güldüyün
bu qızcığaz yaxılsın!
Adıma "oğru" da de,
İncidən
nəyin varsa,
səndən sonra yığılsın!

Mən kiçiyəm,
sən böyük.
Eləcə də qal, gedim.
Yaman dərd gətirmisən,
dərdimi hamar yerə
yığışdırım, say edim.
Qal qaldığın yerdəcə...
Sən böyük qal,
mən kiçik.

## Günəş ömrü

Yanlış düzəltmək yorğunluğu
illərimin dizini bükdü.
Doğruluq getdiyim "mən" dir.
İstiliyə
söykənərək ümidlənmək ilkimdir.
Dünyanı
bir dürüstlüyə qurban edəcək
axtarışlarda
ölkələri tanıdım.
Səni
yarpaq ətrinə, torpaq renginə,
işıq parlaqlığına götürdüm,
böyüdüb çoxaltdım,
yaşıllıq verdim.
Gözünə bir xal qədər kiçik düşdüm.
O an sən
mənə dönməkdən keçdin.
İşıqlığım
gözlərini qamaşdırıb qarğışa
gülümsədi.
Di get!
Mən Günəş ömrü yaşayıram.
Uşaq qəhqəhəsinə
yarımyuxudan oyandım…

## Əfəndim

Məni soruşsan yaralı canam,
İrəvanam!
Paramparça Azərbaycanam!
Bir tərəfim Təbriz,
bir tərəfim Borçalı,
hərəsindən bir tikəyəm,
yekəyəm, Əfəndim.
Dərbənddir anamın bayatıları.
Urmiyada iki canıq deyir,
Kərbəlada əlimi öpən, yaşlı qadın.
Ərdəbil ətri gəlir
məzarından babamın.
Şanlı-şanlı uyuyuram...
Xallı gözümdə işıldayan
parıltımdır
İğdırım, Qarsım.
Dərbədər halımın kəpənək qanadında
hal-halam.
Evimizin üstündə əridilmiş Xalxalam,
Xal-xalam, Əfəndim.
Kibrit boyda alışqanam...
Qarabağın ağrıyan vücuduyam,
Şəhidəm, şahidəm, Əfəndim.
Vətən yağır gözlərim...
Bir ovuc boyda qalmışam,
bir ovuc torpağam, Əfəndim…

## Sızqa xatirələr

Mən buralarda qərib qız
boynumu bükmüşəm;
adamları mənə Bakını andırır.
Mən buralarda
dar küçələr keçib,
salxaq duyğulara rastlamışam.
Bir qoyunda
qızınmaq varkən buzlamışam.
İki-üç günlük "sevgi"
hamının düşüncəsinə hökm edir.
Mən buralarda bir qız axtarıram:
sərv boylu,
qönçə adaqlı.
Mən bir ürəkdən sevgi içirəm
burulğan xəyalıma.
Sızqa xatirələrdən
qaynar ömrə yetişmək haqqımdır...
Bir tumurcuq yarpağın
ətri
bətninə düşür.
Bir gün qəhqəhəsinə ayılıram yuxudan,
bir gün inqəsinə.
Bir əl çatmır mənə...
Mən buralarda

Sirddharthanın keçdiyi yolda
suyun eyni yerdən axmasını,
dönüb-dolanıb eyni yerə qayıtmasını
seyr edirəm.
Bir az Sabir ömrümü,
bir az Vazeh ömrümü...
Və Cek London kimi hər gün
intihar edirəm.

## Portret

Başını torpağa verən
igid başıdır şəhərim.
Torandan arınmış zaman,
qadadan aydın səhərim.
Andım, qürurum,
qəhərim.
Alnıma möhür
Zəfərim.
Nə qədər şəhid vardırsa,
torpaq altında yatanım,
iki, üç dəfə çox qazim,
torpaq üstündə sitəmim.
Ayağını itirənim,
fəryadına didinənim,
gecələri bir çimirlə ötürənim.
Ağrıları səngər-səngər,
qəlpə-qəlpə yatıranım.
Qürur-qürur,
Cənnət-cənnət qapılarım.
Bulud üstə xısınlaşan
zəmi şəhid.
Al qanında boğulanın,
qovrulanın,
burulanın cəmi şəhid.
Portretə işıq verən,

küçəyə yaraşıq verən nəmi?
Şəhid!
Ağ saçlı bir ana gördüm
başdaşına sırmalanmış.
And gününə,
ad gününə çırmalanmış.
Tikələnmiş, tikələnmiş,
qıymalanmış,
qor qalanmış.
Dik duruşlu durnalanmış,
gün-gün uçan ana gördüm.
Qara örtmüş ağ saçına;
Gözlərində gizildəyən
giliz-giliz yuva gördüm.
İstəmirdi kimsə onu duya,
gördüm.
İki dodaq yapışdırdım
qar saçına.
Qurban olum,
nə edim də, kəsim, töküm,
dərman olum heç bitməyən
son acına?
Qan tacına!

## İşıq ömür

Ayağa dolaşırsa,
qara bulud topası–
sehrli işıq seli,
gücdür,
gücünə minnət.
Əz, tapdala, yox elə
qarışqa adamları.
Qalx səmanın üzünə,
ovcuna al Günəşi,
yandır od umanları.
Sök zehnin dərinində
yuva salan zilləti.
Sən əbədi fırtına,
sən əbədi yaşamsan.
Əbədiyyət beyində
kiçicik toxumadır.
Kiçik böyükdə kiçik,
böyük kiçiyə nisbət.
Yaşam göylərdə diri–
hər şeyə toxunmadır.
Toxunduqca işığa
yanır, kül olur ötən.
Yeni hüceyrələrdə
əlmas qopur hücrədən.
Ayağından işıq al,

ürəkdə kodu qışla.
Öncə nə var, nə yoxsa,
Tüpür, söy-qır, yox elə;
Sonra yenidən yarat,
nə vardırsa, bağışla!
Tökülsün damarların,
ağaclı əlmasları...
Sən musiqi adamsan,
nota ver avamları.
Ömür işıq ömürdür,
çək işığı üzünə,
gizlən, böyü, yaşam qat
ulduz-ulduz topları.
Əlmaslı toxumalar,
var ikən yox olmalar,
işıqdan doğrulmalar...
...Kainat gözü dəlir...

## Açıl səhərim

Bəbəyimdə qızarıb zinrik.
Səslərin bir udumluq
ismətinə hesablanıb rahatlıq.
Otel gözətçisinin səsi
zınqırovlu həyat abrına
baş dönməsi verir sakitcə.
Maşınların şütüməsi bir qərib
yoxluğu anladır küçələrə.
Qiymətini öldürür əbədiyyətin.
Özünü yaradan zavallı
özünü qətl edir səssizlikdə.
Elə gecəyarısının bir ümman
yoxluğudur yaşam.
Danışa bilmədiyin sözlərin
yoxsulluğudur
içinə gömüldüyün fəza.
Aç,
Ört,
Yığ,
Bağla yorğunluğu,
Bitir istədiyin nəfəssizliyi.
Açıl, səhərim,
Aydınlığa kiriyim.

## Tovuz Şahinim
### *Polad Həşimova itihaf*

Ümid bir boy qədər torpaqda bitirmiş,
Vətən suvaran bir adda,
Övladda,
Beşikdə,
Laylada,
Ağıda,
Boyuna qurban olduğum.
Rütbən
Və tən, yarıbayarı.
Ona bir boy qədər sevgi verdin,
Sevginə qurban olduğum.
Qürurun,
Qeyrətin,
Səbətin,
Şərbətin mübarək!
Öldürmədin Vətəni,
Dirildib dirçəltdin,
Böyüdün torpaqda ağrı-ağrı,
yaşam-yaşam.
Axıtdığım yaş yağışındır,
Göyərəsən, çiçəklənəsən,
Tovuz Şahinim!

## Doğular...

Bahar ətrimi
yağış aparmaz.
Ölüb torpağa hopsam,
ətrim qurtarmaz.
Buxarlanar buluda,
Enər sakit-sakit,
Yuyar toz-torpağı.
Çəkər yer üzünə
duvağı.
Öpər alınından
şərəflənmiş torpağın.
Damarına rəng qatar
yaşam adlı yarpağın.
Torpağın üzü
yaşıla bürünər.
Çiçək açmış
üzü görünər.
Gözləri cığır açar,
Yeriyər ürəklərə.
Ətir saçılar
ilk doğduğu yerə.
Çilənər dodaqlara
torpağa dönmüş vücud,
canlanar...
Çevrilməz ölülərə.

## Adam

Böyük adam,
Ağır adam,
Ağrılı adam,
Axşamlandı görüşlər...
Dəli adam,
zaman sudan.
Bu adamın on iki
yaşı var.
Mürgü adam,
Süngü adam,
Sürgün adam.
O gün səs gəlmişdi qulağına,
hörgü səs,
hönkürtü səs.
Yabanı ot tərpənir
gilli-gilli.
Sehr qaşıyan adam,
Sən
keçmişin adamısan,
Keçmiş də sənin.
Vallah...
Kirşan tut vaxtı
Bəzən saniyə-saniyə.
Adam, adam,
Xınalı dəqiqələr.

Qoy gömgöy olsun yaşam,
Biri aşağıda gözləyir,
Söngü adam.
Gecə ikiyə iyirmi dəqiqə qalır,
yaş on ikidən çıxdı tam.

## Şirran

Od ən,
Vətən!
Bir pətək qan,
üsyan,
simgəsində can.
Qolu boş qalan
keşik,
Mərmilər əlik, eşik.
Gəlin,
Oğuldur şan.
Sürməli gözü uran,
Sınan dizin sıyrılıb –
Ocaq vətən,
Sucaq vətən
Təzəcə,
təptəzəcə cağ Vətən.
Canda təpər,
sözdə ölkə,
işıqda toran Vətən.
Dində din,
kəlmədə "sin".
Yorğan Vətən,
And yeri,
qandal yeri,
Hürr yeri,
dan yeri.

Baş qoyacaq san yeri,
Bükülü şaman yeri,
Kələğaylı,
kilimli,
Sirrətim, surətim,
Bəxti bəxtəvər Vətən.
Öndə ana, sonda tən,
Bağrında kuruqan Vətən!
Kəlmədə
kəm,
kəmdə qada,
Səmada
sıyrılır oda
sur an Vətən.
Göy rəngdə
Sirran Vətən!

# Oymaqdır

Uzaqlardan üfürülmüşəm
külək-külək,
Qoparmışam yad tozanaq.
Mən elçilər üfüqüyəm
sətir-sətir,
nəğmə-nəğmə,
kətil-kətil,
ətir-ətir.
Ağcaqayın yarpağıyam,
dilik-dilik,
çətir-çətir.
Dan yeriyəm, parlaq, ölü şəfəqlərin
açıldıqca səhərləri,
Bir az kirik,
bir az lirik səs tonuyam.
Hər şeydən az,
Gün donuyam, gün yonuram.
Bəbəyimdən axıb daşan
arzularım
ögey-ögey.
Bu ömür mənə sabahdır,
Bu ömür mənə yamaqdır,
Nağıl-nağıl, bir oymaqdır.
Bəxtim elə fağırdır ki,
Nə yatmışdır, nə oyaqdır.

## Vətən–oğul

Partlayır mərmilər
şəhid anasında.
Vətən geyinir ədası,
Qor götürür kürəyi,
Ağrı sarır bağrını,
and içir:
"Səni torpaq böyütdüm,
Vətən–oğul!"
Cıdır yarışı edir qüdrətini,
qürrəsini.
Bülbül oxuyur fəryadında,
Kəklik səkir otağında,
Sabahlar Vətən oyanır Günəş.
Vətən-vətən
saçılır zərrə.
Vətən savaşı gedir Vətəndə;
Vətən anası
tabut daşıyır çiynində.
Çöküb
torpaq öpür dizində,
torpaq nazlandırır.
...Şəhid anası vətəndir!
Xonçadır,
Ruhu ovuduncadır...

Şəhid anasının üzündə
qaranlıqda ay çıxır,
aydınlıqda göz yaşı – çuxur.
Və təndir!
Vətən savaşı gedir Vətəndə;
Azadlıq eşqinə,
Torpaq sevincinə,
Hər gün oğul doğur ana,
yaşam verir oğluna –
Şanlı yaşam!

## Tanrım

Bir gün bütün çiçəklər solar…
Bir gün quşların göz yaşlarını siləcək
çiçəklər bitər…
Tək insanlıq yox olar, Tanrım.
Sabahların qərib açılması
gecəni öldürər.
Qan damlayar hansısa döşəməyə
təmizlikdən.
Qan qusar divarlar, hər gün qusar…
Yoxluq içində gecələr
tüstü tıxayar nəfəs yollarına.
Qaranlığın işığını söndürər "adamcıq."
Tutulmuş göy
açmaz qaranlığı.
Bütün çiçəklər ağlayar,
bütün çiçəklər rəngsizləşər.
Yox ömrüm qədəh-qədəh həzm olar,
Var ömrüm böyüyər.
Yaza bilmədiyim sözlərin
içində itirər özünü.
Nə kəpənəklər uçar,
nə də çiçəklər açılar gələn sabah.
Kim gülsə,
qatilin əl nişanı
qan sağılmış gözlərin içində qalar.
Şeirin başı ayağına çevrilər.

Mən ölmədim
o gün,
titrək-titrək ağlayar…
Sən də ağla, Tanrım.
Tanımadığım agrılarımı ağla,
yadlığında ağla!
Ruhun qəhəri boğar sükutumu,
Tanrım!
28.01. 2020. İstanbul.

## Eyniyyət

İnsanlar həyatla,
həyat insanlarla gözəllik.
Dayanacaqda
bir çılğın həyatın axışında hərəkət
insanlığın üzündə
bütün rənglərini bəlli edir.
Və həyat yeriyir.

İnsan bir körpüdə,
insan bir uşaqda…

İki yaşlı yan-yana tramvay gözləyir,
tramvay gəlir,
qapılar açılır, qocalar minir tramvaya,
yavaşca hərəkətə keçir, sürətlənir.

Həyat eyni duruşda, eyni yolla gedir.

Bir gənc üz-üzə dayanacaqda yol gözləyir
əlləri cibində.

Köynəyi yaşıl adam
gözlərində eynəklə
həyata eynək arxasından baxır.
Həyat davam edir eyniyyətdə,

danışır dilə uyğun.

Hərəkətə doğru gedir maşınlar.

Bulud sükut içində,
elə bil nəyinsə çıxış yolunu axtarır.

Sağımda, solumda
nəfəs çəkir tramvay.

Dilini dəyişir bu səfər
varlığın miniatürləri.

Ağ saçlı qoca dəf çalır dizi üstündə,
əllərini iki dizindən götürüb
cibindəki telefona uzadır.

Burda həyat gözəldir.

Hamı bir hərəkətdədir,
hamı həyat uçurur.

## Şon yazı

Elə bilirdim,
örpəyə acığın soyuyub,
fahişə qadın.
Elə bilirdim, fahişələrin dili gödəkdir,
elə bilirdim, "sevgili" olduğunda
utanırsan.
Unutmursan,
başın daşlıdır.
Evin pəncərəsi üşüyür qəhqəhələrə,
göz qapağın düşükdür,
mən elə bilirdim.
Dilin papış boyda,

başın hamıdan dikmiş...
Elə bilirdim, yeridiyin yolların
yumulan üz qarasısan.

Sən daha oncə
mənim qınamadığım səbəbdin.

Fahişəlik
dili uzadırmış...

Bağışla, iffətim, bağışla!
Mən səni seçdiyimçün
dilim qısaymış.
Qoy fahişələrin dili uzun olsun!

## Piramida

Alma bayramın, nar bayramın
mübarək,
kef et, xalqım!
Əl çal, başına su damana,
su içində yaşayana.
Əl çal rus qadınlarına,
tamaşaçı ol oyunlarına.
Aktrisalar oxusun nəğmələr,
xaricini təqlid etsin müğənnilər.
Rifahdan, inkişafdan danışsın
aparıcılar.
Səsini udsun aclar.
Ağ şəhəri qara,
qara şəhəri ağ etsinlər.
Hər yeri abad,
bağ etsinlər.
Qarabağı, Təbrizi, Borçalını, İrəvanı
musiqidə yad etsinlər.
Əl çal, xalqım!
Əl çalmağa neçə ildir alışmısan,
daş-divara qarışmısan.
Düşüncələr əsarətə baş əyibdir,
çox gənclərin səfalətdə əriyibdir.
Əl çal, xalqım!
Əlsizlərin yerinə çal,
dilsizlərin yerinə çal.

Fişənglərin yaylımına tamaşa et,
hər ay, hər gün alqışa get.
Tarixini vərəqlərə köçürməkdən,
haqq sözünü söyləməkdən
nə çıxacaq?!
Sənə güllə,
mənə güllə sıxılacaq.
Ən gözəli pramida
milliliyi əvəz etsin,
Bununla da hər şey bitsin!

**2016**

## Geri dönəcəkdir
### *1941-1945*

İnsanlar yurdunu isidən zaman
Ayrıldı qəfil ata baladan.

Düşdü müharibə, yığıldı ordu,
Bürüdü vətəni alovu-odu.

Yayıldı hər yana körpə "inqə"si,
Dağlara səs saldı ananın səsi.

O zaman dəyəyə yürüş etdilər,
Üç günün içində görüş etdilər.

Ata doymurdu heç övladlarından,
Çıxara bilmirdi bir an qoynundan.

Üç övlad qoyaraq yola düzəldi,
Nə kağız, nə də ki, səs-səda gəldi.

Ananın böyüdü artıq körpəsi,
Çəkildi göylərə layla nəğməsi.

Qızları köçürüb, gəlin gətirdi,
Gəncliyi bitirib sona yetirdi.

O zaman ananın saçı ağappaq,
Halını kəsmişdi upuzun yataq.

Əziyyət çəkərək keçirdi ömrü,
Qeyrətlə yaşadı, bitirdi ömrü.

Ölüm gəldiyində o, ağlayırdı,
Göz yaşı bulaqtək mamırlayırdı.

Tapşırdı ömrünü övladlarına,
Göz yumdu ömürlük ömür yoluna.

Neçə qərinələr keçsə də, ancaq,
Kövrək ürəkləri lağımladacaq.

Necə də dolandı keçdi ömürlər?
Beləcə, yox oldu həftələr, illər.

Övladlar çatmışdı yarı yaşına,
Gözlər dikilmişdi yolun başına.

Elə gəlirdi ki, haçansa, birdən
Geri dönəcəkdir ata hərbidən.

***2003***

## Bir tikə

Düşüncə aciziyəm.

Sahibsiz küçələrin,
daşı daş üstündə qalmayan

evlərin uçquntuları...

Gecə boşluğu,
Gündüz çoxluğu,
sopsoyuq sinəmə

qucaqlayıb yatdığım boş qollarım.

Şimalın soyuqluğunda

əllərini nəfəsinə sıxan qəriban.

Yad,
küskün,
məzlum,
bir tikə ömür itirmişəm.

Doğmaların içində yad ömür...

## Cəza

Bütün kişilər bir-birinə bənzəyir,
elə bütün qadınlar da,
şeirlər də
eyniyyət.
Şəhər fənərləri fərqlənir,
səhər-axşam da.
Fərqiyyət
belə səslənmir ehtimal ki…
Əllərim üşüyür bu an.
Ən qəribə bucağında
yol gedirəm dünyanın.
Cəza ömrü yaşayıram,
Elə bil ki, mən bu gün həyatdayam;
Yaşayıram-yaşamıram,
yeriyirəm, nəfəs alıram.
Qırmızı işıqfora oxşayır
maşınların tərs istiqamətə irəliləməsi.
Mən düzünə tərs gedirəm
Halicoğlu dayanacağında.
Şeir yaşantıdır,
mən qovluq tuturam günlərimi.

## Meymunluq

Yağış başımın üstündə
yarpaqları qoruyur,
gəzişir dünya boyda.
Nəfəsim zikirlərinə,
ayağım yaxınlığına xidmətçilik edir.
Küləyin gətirdiyi hüzn
gözlərimdən xəfif gülümsəməyi sovurur.
Mən dolmuşda
dərindən nəfəs alıram.
Səssiz qəşş edirəm
insan meymunluğuna.
Buludlar didilmiş yun,
ağlayan ümid daşıma çevrilir.
Binaların logosları
memarlığını itirir,
Yoxsa təbii olardı ömür.

## Vətən dərdim

Qalxın daha,
igidlərim, ərənlərim!
Alın haqqın
öz yurdunda ölənlərin.
Vətən dərdim!
Dərdim dərin,
İşgəncədə
əsirlərim.
Soy kökümün
məzarını dağıtdılar,
Körpələri yandıraraq
insanlığı alçaltdılar.
Vətən dərdim!
Kəlbəcərim.
Xocalıda qocaların,
cavanların, uşaqların
qanlarını axıtdılar,
selə döndü.
Evlər yanıb
külə döndü.
Vətən dərdim!
Şuşa, Laçın,
Xankəndi,
saysız şəhid verdi.
Vətən dərdim!

Əsgəranım, Zəngilanım,
Ağdamım, Qubadlım,
Xocavəndim, Füzulim,
Dərbəndim,
Göyçəm, İrəvanım,
Zəngəzurum,
Təbrizim,
Urmiyam –
Yoxsa bunları
unutmalıyam?
Qalxın daha,
 igidlərim, ərənlərim!
Alın haqqın
öz yurdunda ölənlərin.

## Çağsız

Bulud ölsün
quş matəmində,
ot xışıldamasın!
Yer pərdələnsin,
anamın əli
yarama toxunsun.
Su batsın,
torpaq iyrəndiyim şeyi
dəyişsin.
Dünya,
kainat, qalaktika
mehvərindən yıxılsın.
Qırıq ulduz parçasına
qırıldım.
Cəsarətsizəm,
Anam cəsarət öyrətsəydi
təcavüz olunanların
haqqını alardım.
Can öyrədən
yaşananların
geri qayıtmayacağını
bilir və susur.
Bütün pisliklər
ağıllıların yaşantısıdır.
Ağıllı adamlara

insansızlıq öyrədib,
gülüşünü asanı
son döyüntüsündə
şallaqlayardım.
Saçıma bulaşan qana
düyünlər üfürülüb.
Bir daş olsam…
Yer kürəsi boğazlayıb canımı.
Uzaqlarda eşitdim ki, ümid var –
keçidsiz və çağsız…

**29.01. 2020. İstanbul.**

## Xocalıda uşaq doğulmadı

Afrikada doğulan uşaqların ümidi
bir heç uğruna öldürüldü.
Biz Xocalı doğulduq,
Kərkük böyüdük,
İrəvan qocaldıq.
Urmiya qurudulub,
Təbriz soyulduq.
Hər yüz ildən bir
Pyotrun projesinə
iyirmi faiz silindik.
Ləkəli əllər qurum bağladı
Ağdam, Şuşa boyda.
Zəngəzur toxumlayıb,
Dərbənd saraldıq.
Şəmistan marş oxudu,
Bacımla sarılıb bir-birimizə
uşaqlığımızı ağladıq.
Kəlbəcər saçaqladı kökümüz.
Dastanlar yazdıq, şeirlər qoşduq,
oxuyub susduq.
At belində kiridi döyüşlərimiz.
Əsir qadınlarımız kainata döndü,
Xilas ola bilmədik...
Min illərin yaddaşı
gülüşümüzdə ağrıdı.

Bizi insanlığın çarmıxında
yuxuya verdilər.
Hər şey bitdi,
biz bitmədik...
Misir piramidalarında
sızıldadı sümüklər.
Hələbdə qətl etdik insanlığı,
Xocalıda uşaq doğulmadı.

## Tablo gülür

Zəng səsində addım dinşəyirəm,
hiss edirəm,
o başqa hissdir.
Ürəyimin bir köşəsindən
xəlvətilik üzümə yansıyır bəzən.
Yaxşı şey düşünməyə çalışıram,
müsbət enerji
hissimə yansısın.
Getmə!
İlk dəfədir, uzun gündə
tablo gülür.
Səadət ılıqlığı qondarır məni.
Keçilməyən insan yoxdur,
elə hiss də.
Yağ ömrümə,
əvəz olunmadan
cücərt ruhumun sənini.
Silinmə!
Yerin qış qalar...
Qamçılayaq bizdən ayrılıb
daş olacaq yaşanmamışları.

## Son

Ümidin parçası içimdə
son ümidini yaşayır.
Necə yorğun, necə durğun,
bir əlçim qalıb ömür–gün.
Gəl,
yox, gəlmə!
Dərd gətirir hər gələnlər.
İçimdə ömür yanğında,
Alma, ömür mənimkidir.
Sən mənim nəyimə lazımsan,
Qənimkidir.
Eh...
Səssiz nəfəs bir gün bitər,
Son.
Yox, bir kəs olmaz,
Son, son, son.
Və üstündə daş karvanı...

## Telefonum

Sabahımın keçməyən saatı,
gecəmin büsatısan.
Sənsiz sabahlarım sabah olmaz.
Sevgini ürəyimdə dəmləmişəm,
döşəməsi – uzaqlığın.
Hər işdən çıxınca uzanır
yollar.
Hər saniyə zikr edirəm gəlişini.
Evə çatdığında
evlənir ruhumun qisməti,
Gəlinlik geyinir telefonum.

## Cüt səbir

Evin divarları aydınlandı.
Cüt səbir gəldi
niyyətimin güngörməz halına.
Uzaqlara dalıb getdi,
getdi göylərin sirrinə,
səsinə,
uğultusuna,
sehrinə.
Sakitliyi pozdu qonşunun kamaz səsi,
xoruzların banlaması.
Sivri sükunət qopdu
inzivaya çəkildiyim köşədən.
Zamanın köçüb gedən ayrılıqları
tellərimi gümüşülətdi.
Deyirlər, qərib qız varmış bu diyarlardan ötən,
varlığında ölüm təhlükəsi:
Ağ səhərin bir nəfəs halı,
məktub qədər uzaqlarda cavabsız qalan.
Dibsiz kvadrat...
Sonsuzluq...

## Ay doğan gecə

Doğmuş Ay işığında anamın səsi
atamın kərəntəsinə qarışmış.
Gecəyarısı saat dörddə
kədər ələnmiş,
nəğmələr oxumuş nəmli təbəssümdə.
Biri var, biri yox,
heç olmamış,
gülümsəməmiş,
ağlamamış yuxusuz gecələrimin
qızdırmalı ovsununa.
Düyünlənən ümidimin
al yanağına qırış düşməmiş.
Pəncərəmin ətəyində
səs salan külək
gözlərim baxa-baxa
Ay doğan gecəyə yoxluq gətirmiş.

## Mən adlı kim qaldı ki...

Yaz gecəsində görüşdük,
ağaclar qırov bağlamışdı nəfəsindən,
dolanmışdı qapımıza qaranlığın zolağı,
nəyisə xatırladırdı, ya da anladırdı.
Onda nəfəsim çox istiydi,
kin-küdurətsizdim.
İllər keçdikcə
soyuqluğun ciyərlərimə dolurdu,
buzladırdı ciyərlərimi,
nəfəs almaz olurdum.
Yay gecəsində təngnəfəsdim,
öləcəyimdəm ölmüşümə gedirdim.
Öldükcə ölürdüm.
Bir qığılcım vardı ovcuma topladıqlarımda,
ovcumdan atdıqlarımda.
Gömülməyə gedirdim ürəyində,
getdim,
fəsillərim qarışdı.
Mən adlı kim qaldı ki?...
Danışan, tapdanan,
itib-batan ayaq izlərindən başqa.
Gəlişimdən gedişimin fərqinə gedirdim,
getdikcə,
uzandıqca, qısaldıqca özümə boylanırdım

səndən.

Varlığımda yoxluq,
yoxluğumda varlıq daşıyan dünya!
Sinəndə sıralanıb baş daşlarım,
odur boyun bağın!

## Sovruluram

Günəş nə sarıdır, nə qırmızı,
elə payız rəngidir.
Mən bütün rənglərin
orbitində fırlanıram yeni günə.
Qollarımı açaraq,
bir uşaq sevincini
qətl edərək gedirəm.
Solmuş yaşıl-sarını,
ömrümün püstəli
dövrünə gətirirəm ki,
cikkiltili qaranquşlar
açsın günün alatoranını.
Qollarımın çəkici gücü
gizlənsin.
Tənhalıq və mən,
bir də, boş bozaran qollarım...
Necə də yuxum gəlir,
sovruluram gecəyə..

## Ulduzlar göyərmir

Əllərimi unutdurur
bərk tutaraq yağışlar.
Sualım boz daş,
məxməri açır
dilimin ucu.
Mən kainatın qırış yolları,
yeriyən və addımlanan.
Bütün maşınlar üstümdən keçir
binaların altında park etməyə.
Eşilir ürək çırpıntıları,
səs dalğaları – səs...
Geyinə bilmədiyim rəngli geyimlərin
pulları
və əzilən hər yerim göynəyir.
Saatların əqrəbini
köksümdə gəzdirirəm
yerişlərdə.
Niyə dilim danışmır,
pıçıltılarım yuxuya düşür?
Axı niyə ulduzlar göyərmir?!

## Lal otaq

Elə yuxusuzam ki, sakitliyə imrənir,
özümü dinşəyirəm.
Xeyir düşün, xeyir olsun.
Qaranlıq otaqda
mədənin qurultusu
yaz vaxtını beynimə salır.
Görəsən, içimdə
çömçəquyruq yoxdur ki?
Lal otaq
cırcırama səsi verir qulağımda.
Bəlkə elə təkliyin möhtəşəmliyi
bu səslərdə aldanır.
İçindəki dalğaların mənbəyi
nə dağdan gələn bulaq gözüdür,
nə də buludların toqquşub yağması,
heç dənizə də oxşamır.
Sən varsan,
sən həm də eyniyyətdə yoxsan.
Yazanda bir talesən,
bir ömürsən.
Yazmasan, daşsan,
torpaqsan, otsan, yoxsan.
Ağrısan, acısan, dərdsən,
hər addımda dərssən,
imtahansan,

imitasiyasan.
Biri səni yaşayır,
biri səndə yaşayır.
Nəfəsin bitdiyi gün
yaşantılarınla bir boysan,
torpaqsan.
Üstündə göyərən ot,
saralan payızsan.
Payızı sevmirəm,
sarısı ruhumu ağrıdır.
Yarpaq kimi üzüldüyüm hər gün
rəngimi oğurlayır.

## Ruhuma çəkdiyim

Səni öz halına buraxsam,
görəsən, daha necə cəzalanaram?

Mən hər kəsi halına buraxan yolçuyam.
Səni ruhuma çəkmişəm,
fərqimdə deyilsən.
Gün gələr, bütün qadınlar
düşüncəndə bəlkə böyüyər.
Kiçikdə – böyüklük,
təklikdə – tənhalıqmış.
Sən
sabahları içimdə hiss etdiyim nursan.
Sən sən ol, mən də mən.
Qoy gülsün bizə bütün aşiqlər.
Sevgi nə birgecəlik,
nə birgünlükdur.
Sevgi boğaz körpüsünün üzərindən
keçən metrobüsdür.
Sevgi gəminin su ürəyinə iz salmasıdır.
Sevgi o suyun damlalarıdır.
Sən bunu bir gün,
mən olmadığımda axtaracaqsan.
Səni ruhuma çəkmişəm,
fərqimdə deyilsən!
Bu gün ən təmiz gündür,
səni ruhuma çəkdiyim gün.

# Kal ulduz

Oralarda havalar necədir?
Mən çox üşüyürəm...
Qızınmağa bir çadır olsa,
yetər!
Burda günəş axşamlayanda
göyə çəkilirəm.
Səma topa-topa pambıq,
donuram qığılcımlar öpüşəndə.
Ulduz
kal-kal.
Ah,
məni udsa, udsa
bir çiçək,
əziz, yad, ud sevgim udar.
Nöqtə bir ulduz qıyımı.
Sətir
nöqtələnər.
Göyərçin dimdiyində sevişərəm
Yer üzü qədər.

## Sən, mən

Bir uçurum,
bir bağlantı var ömrümüzdə.
Nə edərsək, edək,
sürüklənirik
ta... bizi biz edənlərə...
Bəzən sevgi çiçəkləyir
ömrümüzün qış fəslində,
bəzən sevgisizlik.
Şaxtaya düşmüş,
sırsıralanmış biz tumurcuqlayırıq,
biz saralırıq,
biz quruyuruq...
Palıd yarpağı, ağcaqayın ağacı,
əzgil dənəcikli puçurlayırıq
sevgi-sevgi.
Biz çiyin-çiyinə,
addım-addım yaxınlaşırıq,
addım-addım uzaqlaşırıq
biz ola bilmək üçün.
Sən,
mən.

## Qut boyda

Şəkilləri şəkillə bilinən çoxluqlarda
şəklə düşmüşəm.
Əyri-üyrü burun, qulaq, diş yapışmışam
siluetə.
Şəkil çəkmişəm,
şəklini çəkmişəm bəbəyin – güzgü misalı.
İtən və yenilənən şəklimdə
adama
xəritə şəklində
uşaq geyindirmişəm birnəfəsə.
Bütün heyvanlara oxşamışam,
heyvanları oxşamışam.
Sərçə –
sərçələr etibarlı olur.
Boz sərçə çağrılarında pardaqlanıb
yerə səd çəkmişəm.
Bir gün daş,
o biri gün torpaq,
o biri gün kömür,
o biri gün dəmir – enmişəm.
Yanmamış üzü yaşantılarıma keçib
qırqovul, qarışqa, kərtənkələ qovlamışam
günbatana.
Bir gün adam,

bir gün yad olmuşam
səbəblərə.
Onda elə orda qazanmışam
işıq verməyən irəliləyişi.
Orbitlərin
kiçik zərrəcikləri
əlli dəfə kiçik, səksən dəfə böyükdür.
Dayanışma məsafəmdə
qurtuluş səbəbi olub
yüz min dəfə yaşlanmışam – azalmışam,
bir o qədər böyümüşəm öz oxumda.
Şəkillərə salmışam qalaktikalarda dövrəni.
Ən sonda
Qut boyda sevmişəm adamları.

## Yuxu

Çökdü hava – qaraldı,
sel aparırdı küçələri.
Birdən küçələrdən dağa çıxdıq,
dağa quşbaşı yağış yağdı.
Ani baş verirdi axım...
Yudu dağları.
Aynəbəndin pəncərəsi açıq idi,
yağış palçığa çevrildi,
doldu evin həyəti.
Getdikcə boyu yüksəldi palçığın.
Birdən
Yer aralandı, biz qapıları bağladıq.
Anam ölməmişdi,
Atam harasa getmişdi maşınla.
Buzovu örüşdə örükləmişdik,
O da örükdə qaldı.
Elə birdən başladı hər şey,
ev tab gətirməyəcəkdi bu palçığın ağırlığına.
Zirzəmisi də yoxdu evin tərslikdən.
Nə edəcəkdik
palçıqlı divarlar üstümüzə gəlsəydi?
Heç nə.
İçəridə uçuğu gözləyib palçıqda boğulacaqdıq.
Anamın səsi gəlirdi eləcə – qorxma!
Hava getdikcə kəsilirdi.

Çöldəki çöldə,
evdəki evdə,
dağın yarılmasını gözləyirdik.
Dağ necə yarılacaqdı,
bəlkə yandırıcı,
bəlkə öldürücü,
bəlli deyildi.
Hələ ki, biz zülmətin şərini yaşayırdıq.
Bizdən kim xəbər tutacaqdı,
helekopter bizi xilas edə bilərdimi?
Biz keçmişdə məhv olunan qövmləri
xatırlayırdıq,
Onların da sonu anidən gəlmişdi.
Zəng də edə bilməyəcəkdik ki, diriyik.
Səsimiz palçıqlanıb dərinlikdə qalacaqdı.
Dağların qovuşmuş və ayrılmış küncündə
gerçəkiydi hər şey.
Diricə üstümüzə gəlirdi – yuxu.

## Sənə qədər

Sənə qədər
o qədər çox ağrılar yaşamışam ki,
ağrıdıqca sevməyi öyrədib,
insanları,
insanlığı tanıdıb,
hissləri min yerdə öldürüb-dirildib.
Elə özüm də
üç dəfə ölümlə həyat arasında
həyatdan ikiəlli yapışmışam.
İçimdə daşıdıqlarımı
kənd-kənd,
şəhər-şəhər,
ölkə-ölkə daşımışam.
Sənə qədər
gözlərimə yaş dolub,
həm də
elə çox dolub ki,
gözlərim güləndə
işıqlığını ətrafa yaş kimi yansıdıb.
Mənə elə gəlir ki,
həyatda hər şey bir-birinə oxşayır,
hətta eynidir.
Mən isə
fərdiliyi və azadlığı
təpədən-dırnağa sevirəm.

Sənə qədər
ulduzların tək-tək parlaqlığı
elə də çox gözlərimə düşməyib.
Sənin üçün çox darıxıram.
Mənşəyi məlum olmayan darıxmağım...
Darıxmaq içdən sıxılmaqdırmı?
Əksinə,
içə sıxılmaqdır.
Sənə qədər
pəncərəm də yox idi,
külək ara-sıra taybatay açıb
ruhumu qolları arasına sıxsın!
Sənə qədər
tam deyildim,
səninlə tamlaşmışam,
sən mücərrədsən, əzizim...
Bir sakit ayaq səsi sevinc gətirir,
əllərimi isidir.
Astaca sığal çəkir
əllərimin yiyəsiz soyuğuna.
Sənə qədər
hər şey
buludun üstündə
sehrli xalçaya minib
qərb ölkələrinə uçurdu.
Nağıl axşamlarında
sakitcə yuxuya gedirdi
əl boyda ümid səsi.

Bəzən
hıçqırıq qırığına oyanırdım sabahlar.
Bir hikkə,
qıcıq,
əsəb,
sevgi,
sevinc çuğlayırdı təkliyin not dalğasını.
Sənə qədər
bütün qədərlərim
iki xətt üzərində yeriyirdi kəsik-kəsik,
dalğa-dalğa.
Sənə qədər
hər şeyi sənə hesablamışdım.
Bir göyərçin də uçdu,
rəngi ağappaq idi – sənə qədər...

## Həyatdır

İçim doludur.
Heç bilmirəm, bu içimin qaynayıb-daşan,
buz bağlamış malekullarını
dəlib-deşən hansı hisslərin istiliyidir.
Heç bilmirəm,
musiqi qulağıma yaddırmı, əzizdirmi?
Yoxsa mən də bu dünyaya yadam?!
Yoxsa...
Lap, lap uşaqlığım yadıma düşdü –
Xuramanın başı.
Yox, yox,
Xuramanın təpəsi.
O uşaqlar orda eşşəkbeli oynayardılar.
Uşaqlar deyərkən,
mənim yaşıdlarım.
Hətta o eşşəkbeli oynayanların içərisində
mənə aşiq olan da vardı.
Yəni günlər bir o qədər mənasız,
bu qədər xəbərsiz,
bir qayğı kimi ötüb keçdi.
Mən o balaca qızam.
Mən bu dünyaya yad qızam.
Mən bu dünyanı sevməyən qızam,
heç sevməyən.
Mən bu dünyanı qərib-qərib
göz yaşı içində sevməyən qızam.

Özüm özümə bəxtəvər verirəm,
Sən çox gözəlsən-deyirəm.
Mən bir taxta oturacağı olmayan qızam,
Mən
bəzənib hüsnünə tamaşa edən qızam,
Özünə hər gecə layla çalan qızam,
Mən saçlarına sığal çəkən qızam,
Saçlarını öpən qızam,
Saçlarının dənəsini sayan qızam.
Bəlkə də elə həyat
elə bircə damcı göz yaşıdır,
elə bircə öpüşdür.
Bir dəfə içinə çəkişdir.
Sadəcə bir qəhqəhədir.
Ürəkdən güldüyündür,
ürəkdən sevdiyindir.
Bax elə çöldə həyətin uşaqları
səsli-küylü,
bir-biriylə dalaşan,
bir-birini vurub yıxan,
itələyən,
əlindəkini alan bir həyatdır.
Bax elə bu uşaqların yaşamı,
yaşadıqları –
hər şey elə həyatdır.
Bəlkə də bir yuxunun içində
bir varlıq
hər gün dirildikcə bu qız da ölür.

Bəlkə elə hər gün
qollarını qucaqlayıb yatan bu qız
tənhalıqla xoşbəxt olur?!
Bəlkə elə bu qız tənələrində daha xoşbəxt olur,
Möhtaclığında daha xoşbəxt olur?!
Nə deyirsiniz?
Xoşbəxtlik nədir ki?
Xoşbəxtlik bir nəfəsdir.
Xoşbəxtlik bir səsdir.
Xoşbəxtlik notdur.
Xoşbəxtlik bəlkə elə bu qızın bəbəyindədir.
Parlaq bəbəyində…
Ayna gözlərində…
Gülər üzündə…
Nə deyirsiniz?!
Xoşbəxtlik nədir ki?
Xoşbəxtlik bu qızın əllərindən uçandır.
Torpaqlaşandır bəlkə də.
Telefonun yaddaşında qalandır.
Qayğıdır bəlkə də.
Xoşbəxtlik nədir ki?
Bir misradır.
Bir,
Bir layladır.
Bir də, yüksüz, dərdsiz,
yox, yox, dərdli, amma yüksüz,
yüksüz bir şeydir, nədirsə…

## Bu qız

Bu, sən görən o uşaq deyil.
Bu, sən görən o fağır qız deyil.
O fağır qızı öldürdülər,
O fağır qızı doğuluşdan böyütdülər...
Bu, sən görən o fağır qız deyil.
Bu, sən görən içi dolu,
ruhu dolu qızdır.
Bu, sən görən o qız deyil.
Bu, sən görən o qız deyil, deyil!
Bir nəfəsim var, burda – boğazda,
nəfəs ala bilmirəm.
Danışa bilmirəm,
Ölə bilmirəm.
Bir nəfəsim var, burda – boğazda.
Bu, sən tanıdığın o qız deyil.
Gizlənpaç oynayan qız...
Nəğmə oxuyan qız...
qəhqəhə bəstələyən qız...
Bu, o qız deyil.
İnan ki, bu, o qız deyil.
Mən də bilirəm ki,
bu, o qız deyil.
Saçları sığalsız qızdır.
Hər gecə saçlarının dənini sayan qızdır.
Bu, tənha qızdır.

Bu qız
hər kəsin dərdini üstlənib
çiynində daşıya bilən qızdır.
Bu qız
ölən günlərinə
qəhqəhə çəkib gülən qızdır.
Bu qız
sevən ürəklərin şənliyidir,
sevincidir,
nəğməsidir.
Bu qız
sizin tanıdığınız qız deyil.
Heç sən də tanımırsan bu qızı,
heç doğan anası da tanımadı bu qızı.
Bacısı, qardaşı da tanımadı bu qızı.
Bu qız
dastan qızdır, şeir qızdır, misra qızdır.
Bu qız,
Bu qız kainat qızdır, ömür qızdır,
yaşam qızdır bu qız.
Bu qız
sirr toxumudur.
Bu qız
yuvasız qızdır,
laylasız qızdır.
Bax bu qız balasız qızdır.
Heç böyümədi ki..
Heç böyüdüyünü görmədim ki..

Sevindiyini çox görmədim,
Heç az da görmədim sevindiyini.
Bu qız
hər kəsi aldadan qızdır.
Bu qız
hər kəsi heyran qoyan qızdır.
Bu qız
dünyanı içinə çəkən qızdır.
Nədir ki, xoşbəxtlik, nədir ki, səadət?
Nədir ki, nədir ki, hə?
Nədir?
Bu qız səadətdir,
bu qız səadət qızdır.
Bu qız möhtərəm qızdır.
Siz bu qızı tanımırsınız.
Siz bu qızı bir belə də olsun
bəlkə heç sevmirsiniz.
Bu qız,
Bu qız illərini,
günlərini, fəsillərini, laylalarını,
qollarında yatıran qızdır.
Bu qız,
Bu qız hər kəsə ömrünü bitirən qızdır.
Bu qız tənha qızdır.
Heç bir oturacağı da yoxdur,
heç bir isti yuvası da.
İsti qolları da yoxdur bu qızın.
Bu qızın bir güzgüsü də yoxdur.

Yoxdur, yoxdur!
Bu qızın güzgüsü gözlərindəndir,
bax parlaq gözlərindən...
Bu qızın sevgisi yuxularındandır.
Köçüb gedən günlərindəndir bu qızın sevgisi.
Bu qız dam boydadır, bu qız daş boydadır,
bu qız çaylar boydadır,
bu qız, bu qız ləpələr boydadır.
Bu qız,
Bu qız nəfəslər boydadır.
Bu qız, bax bu qız...
Siz…
Sən…
O…
Bu qızı tanımırsınız.
Heç kimsə bu qızı tanımır.
Bu qız nəfəs qızdır, nəfəs.
Kəsilən nəfəs qızdır,
bu qız...

## Eşidirsən

Eşidirsən?
Uşaqların səs-küyünü eşidirsən?
Eşidirsən.
Musiqi səsini də,
bütün soyuqluğun nəfəsini də eşidirsən?
Eşidirsən.
Sən bütün soyuqluqların səsini eşidirsən.
Bütün dəliliklərin səsini eşidirsən.
Bütün davaların,
bütün göz yaşlarının səsini eşidirsən.
Eşidirsən.
Bütün xoşbəxtliklərin qəhqəhəsini eşidirsən.
Bütün laylaların yuxusunu eşidirsən.
Sən eşidirsən.
Sabahın quş cikkiltisini,
axşamın sükutunu,
ulduzların ölüşünü eşidirsən, bilirəm.
Bilirəm ki, eşidirsən,
sən eşidirsən.
Neçə evdən, neçə qapıdan, neçə pəncərədən
dolan ahlar varsa,
günahlar varsa, hamısını eşidirsən.
Eşidirsən.
Eşidirsən, bilirəm.
Bu yoxluqların pıçıltısını,

yalquzaqların ulumasını,
Çiçəklərin rəngini, səmanın qovşağını.
Sən,
Sən hər şeyi eşidirsən.
Eşidirsən.
Sən bu gözlərdən axan yaşları da eşidirsən.
Sən özünə layla çalan yuxuların
mürgüsünü də eşidirsən.
Hər şeyi eşidirsən.
Hər şeyi, hər şeyi, hər şeyi eşidirsən.
Eşidirsən.
Sən –
bir oturacağı olmayan qız.
Sən –
söykənəcəyi tək bir şey olan qız.
Sən!

# İçindəkilər:

**Ön söz:** ***Gülnarə İsrafil poeziyasının sirli qatları*** **.................................... 3**
**Dəbdədir .................................... 12**
**Saat tilsimi ....................................**
**Səkkizinci qat....................................**
**Yer yeriyir ....................................**
**Kəndimiz....................................**
**Dillənər başım ....................................**
**Qocaldım....................................**
**Qadan alım ....................................**
**Qəriban....................................**
**Dərd kürəsi ....................................**
**Göy "sin"dir ....................................**
**Sənsən....................................**
**Sis tamğalı ötənək ....................................**
**Şəhid analarını ağladanlara ....................................**
**Mən elə gündüzəm....................................**
**Dil əkli ithaf ....................................**
**Bayatı ....................................**
**Sökülürəm....................................**
**Bəxtli qız ....................................**
**Baryum buludu....................................**
**Haça yol....................................**
**Sehr aça şəhər....................................**

**Daş–ağac.............................................................**
**Bənzərim ..........................................................**
**Üz üstə ..............................................................**
**Vətən.................................................................**
**Anam..................................................................**
**Xonça tutur mərmi................................................**
**Sarı küm ............................................................**
**Yarpaq düşdü ......................................................**
**Hun atam............................................................**
**Yetim ..................................................................**
**Günəş ömrü ........................................................**
**Əfəndim .............................................................**
**Sızqa xatirələr.....................................................**
**Portret ...............................................................**
**İşıq ömür ............................................................**
**Açıl səhərim.........................................................**
**Tovuz Şahinim......................................................**
**Doğular...............................................................**
**Adam..................................................................**
**Sirran..................................................................**
**Oymaqdır ............................................................**
**Vətən–oğul..........................................................**
**Tanrım ...............................................................**
**Eyniyyət..............................................................**
**Son yazı .............................................................**
**Piramida .............................................................**
**Geri dönəcəkdir ...................................................**
**Bir tikə ...............................................................**

**Cəza** ............................................................
**Meymunluq** ............................................................
**Vətən dərdim** ............................................................
**Çağsız** ............................................................
**Xocalıda uşaq doğulmadı** ............................................................
**Tablo gülür** ............................................................
**Son** ............................................................
**Telefonum** ............................................................
**Cüt səbir** ............................................................
**Ay doğan gecə** ............................................................
**Mən adlı kim qaldı ki** ............................................................
**Sovruluram** ............................................................
**Ulduzlar göyərmir** ............................................................
**Lal otaq** ............................................................
**Ruhuma çəkdiyim** ............................................................
**Kal ulduz** ............................................................
**Sən, mən** ............................................................
**Qut boyda** ............................................................
**Yuxu** ............................................................
**Sənə qədər** ............................................................
**Həyatdır** ............................................................
**Bu qız** ............................................................
**Eşidirsən** ............................................................

**124 de bagla**